Demokratik Təşəbbüslər İnstitutu

IDI

Institute for Democratic Initiatives

2019

# Şəxsi həyatın toxunulmazlığı və fərdi məlumatların istifadəsinə dair ARAŞDIRMA SƏNƏDİ

İÇİNDƏKİLƏR:

Xülasə........................................................................................................2

Giriş...........................................................................................................3

Metodologiya.............................................................................................4

Ümumi məlumat.........................................................................................6

Beynəlxalq qanunvericilik..........................................................................6

Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsində şəxsi həyata hörmət və fərdi məlumatların qorunması hüququ.......................................................................8

Yerli qanunvericilik....................................................................................13

Vəziyyətin dəyərləndirilməsi......................................................................17

Nəticə........................................................................................................23

Tövsiyələr..................................................................................................24

## Xülasə

Azərbaycanda insan hüquqları sahəsində əsas problemlərdən biri şəxsi həyatın toxunulmazlığı hüququnun qanunsuz müdaxilələrlə rastlaşmasıdır.

Bu araşdırma şəxsi həyatın toxunulmazlığı çərçivəsindən fərdi məlumatların toplanılması, istifadəsi və qorunması ilə bağlı yerli və beynəlxalq qanunvcericilik aktlarının, Avropa məhkəməsinin təcrübəsi və Azərbaycandakı mövcud vəziyyətin təhlilindən ibarət olub nəticə və tövsiyələr hissəsindən ibarətdir.

Hesabat hazırlanarkən ***tədqiqatın*** aşağıdakı mərhələrindən keçib:

**1. Problemin qoyuluşu**

Problem hesabatın giriş hissəsində işıqlandırılıb və qısa təsviri ilə tamamlanıb.

**2. Metodologiyanın seçilməsi**

Tədqiqat müddətində müşahidə, təsviretmə, ölçmə kimi elmi araşdırma metodlarından istifadə olunub. Cəmiyyətdə fərdi məlumatların qanunsuz istifadəsi və şəxsi həyata müdaxilə ilə bağlı baş verən hüquq pozuntusu faktları müşahidə olunaraq təsviretmə metdou ilə hesabatda əks olunub. Hüquq pozuntusu kimi toplanılan faktlar qiymətləndirilərkən Avropa İnsan Haqları Məhkəməsinin (bundan sonra Avropa Məhkəməsi) 3 mərhələli test prinsipindən ölçmə metodu kimi istifadə olunub.

**3. Tədqiqat obyektlərinin seçilməsi**

Tədqiqat obyektləri fərdi məlumatların qorunması və şəxsi həyata hörmət hüququ münasibətlərini tənzimləyən qanunvericilik aktlarından və məhkəmə təcrübəsindən ibarətdir. İlkin olaraq "Avropa İnsan Hüquqları və Əsas Azadlıqları haqqında" Avropa Konvensiyası, "Mülki və Siyasi Hüquqlar haqqında" Pakt və "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənilməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Avropa Şurası dövlətlərinin imzaladığı Konvensiyada problemi tənzim edən hüquq normaları təhlil edilib və dövlətlərin bu normalarla bağlı öhdəlikləri müəyyən edilib.

Qanunvericilik tədqiqat obyekti kimi seçilərkən onun ikinci hissəsi kimi Azərbaycan Respublikasının fərdi məlumatların qorunması ilə bağlı hüquq normalarının əks olunduğu normativ aktları təhlil edilib və onların müddəalarının beynəlxalq qanunvericilklə müəyyən edilmiş standartlara uyğunluğu yoxlanılıb.

Son olaraq isə Avropa Məhkəməsinin şəxsin məlumatlarına qanunsuz müdaxilələrlə şəxsi həyata hörmət hüququnun pozulması ilə bağlı bir sıra məhkəmə işləri təhlil edilib və müxtəlif situasiyalardan asılı olaraq Məhkəmənin yanaşmaları bir araya gətirilib.

**4. Müşahidə**

Tədqiqat aparılarkən ölkədə baş vermiş şəxsi həyata əsasız müdaxilə hallarının kütləvi informasiya vasitələri və sosial media üzərindən müşahidəsi aparılıb və fakt olaraq bir araya gətirilib.

**5. Təsviretmə**

Qanunvericilik və müşahidə metodu ilə əldə olunan faktlar detallı təhlil olunaraq hesabatda təsvir edilib. Hüquq pozuntularının və yerli qanunvericiliyin beynəlxalq standartlara uyğunsuzluğu hesabatın nəticə hissəsində təsvir edilərək yekunlaşdırılıb.

## 1. Giriş

Azərbaycanda tez-tez qanunsuz müdaxiləyə məruz qalan insan hüquqlarından biri də şəxsi həyatın toxunulmazlığıdır. Bu daha çox şəxsin özəl həyatı ilə bağlı məlumatların qanunsuz toplanılması və yayılması, şəxsin şərəf və ləyaqətinin alçadılması, işgüzar nüfuza xələl gətirilməsi, seksual orientasiya və ifadə azadlığının sərhədlərinin şəxsi həyata hörmət hüququnun sərhədlərini keçməsi halları ilə bağlıdır. Latentiyini qoruyan halların çoxluğunu nəzərə alaraq bu kimi halların dəqiq statistikasını çıxarmaq mümkün deyildir.

Rast gəlinən halların ictimai əhəmiyyətini və şəxsi həyata qanunsuz müdaxilənin nəticələrinin fərd üçün olan təhlükəliliyi bu monitorinqin aparılmasını zəruri etdi.

Qanunvericilik şəxsi həyata hər hansı bir müdaxiləni, yazışmalara nəzarət və məlumatların qanunsuz toplanıb və yayılmasını qadağan edir. Bu araşdırmada ümumilikdə hökumət tərəfindən bu qadağalara nə dərəcədə əməl edildiyi araşdırılıb. Dövlət Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyi tərəfindən ictimai fəalların, xaricilərin və hüquq müdafiəçilərinin telefon danışıqlarının dinlənilməsi və internet yazışmalarına müdaxilələr haqqında məlumatlar bir araya gətirilib. Poçt xidmətləri

barədə tez-tez duyulan şikayətlərin nə dərəcədə real olduğu şifahi şəkildə öyrənilib və bununla bağlı Azərbaycandakı Amerika Səfirliyinin saytında yerləşdirilən hesabata istinad edilib[1].

Şəxsi həyata müdaxilə, o cümlədən də məlumatların qanunsuz toplanılması və istifadəsi ilə bağlı ölkələrin daxili qanunvericilik normaları olsa da, bu mövzuda fərqli yanaşmalar mövcuddur.

Avropa Məhkəməsi isə 8-ci maddənin tətbiq dairəsini geniş şəkildə götürür və bildirib ki, bu maddə hətta onun əhatə dairəsinə düşməyən konkret hüquqları da nəzərdə tuta bilər.

Məhkəmə Konvensiyanı canlı orqanizm kimi təssəvür edir və normaların elastikliyini inkar etmir, lakin 8-ci maddənin tətbiqi dairəsini qeyri məhdud deyil.

Araşdırma Konvensiyanın 8-ci maddəsi ilə qorunan hüququn konkret dairəsinə, yəni fərdi məlumatların toxunulmazlığı, qanunsuz müdaxilələrin və bununla bağlı olan beynəlxalq və yerli qanunvericilik aktlarının vəziyyətinin monitorinqini əsas məqsəd kimi qabağına qoyub. Bununla bağlı Avropa məhkəməsinin bir qisim qərarları araşdırılıb və məhkəmənin konkret şərtlərdən asılı olaraq ərizəçilərin şikayətlərinə olan yanaşmasının icmalı hazırlanıb.

Toplanılan faktlar Avropa Məhkəməsinin 3 mərhələli test prinsipi rəhbər tutularaq seçiləndən sonra pozuntu kimi hesabata daxil edilib.

## 2. Metodologiya

Ölkədə şəxsi həyata qanunsuz müdaxilə və fərdi məlumatlardan qeyri-legitim məqsədlər üçün istifadə hallarının geniş yayılması bu hesabatı zəruri etdi. Bu araşdırmanın məqsədi şəxsi həyatın toxunulmazlığının pozulması və fərdi məlumatlardan illeqal istifadəyə dair faktların toplanılması və hüquq pozuntularının istiqamətinin müəyyən edilməsidir.

Araşdırma 3 mərhələdən ibarətdir:

1. İlk mərhələdə fərdin şəxsi həyatı ilə bağlı fərdi məlumatları anlayışını müəyyən etmək və bu növ bilgilərin beynəlxalq və yerli qanunvericilikdə təsbit olunan əhatəsini müəyyən etmək, qanunsuz müdaxilə halları üçün nəzərdə tutulan məsuliyyət tədbirlərini göstərmək nəzərdə tutulub.
2. İkinci mərhələ monitorinqdən ibarətdir (şəxsi həyatın toxunulmazlığının pozulması və fərdi məlumatlardan legitim olmayan istifadə faktlarının monitorinqi).

[1] https://az.usembassy.gov/wp-content/uploads/sites/284/Azerbaijan_HRR-2017_Aze.pdf

3. Yekun mərhələdə isə əldə olunan nəticəyə uyğun olaraq araşdırmanın tamamlanması və dərc olunması hədəflənib.

Mərhələlər üzrə işlərin detalları:

1. Birinci mərhələdə bir sıra hüquq mənbələri araşdırılaraq fərdi məlumatlar kateqoriyasının xüsusi bir növ kimi ayrılmasının tarixi, əhatə dairəsi, beynəlxalq qanunvericilik və yerli qanunvericiliyin beynəlxalq qanunvericiliyə uyğunluğu və pozuntular üçün hansı cəzaların nəzərdə tutulduğu araşdırılıb.

Araşdırma üçün mənbə qismində sosial şəbəkələr (Facebook) və onlayn media (Google və YouTube) üzərindən paylaşılan xəbərlərə istinad edilib. Araşdırma obyekti olan dövlət orqanları və kommersiya təşkilatları iş prinsipi fərdi məlumatların qorunması öhdəliyi olanlar sırasından seçilib.

a. **Azərbaycan Respublikası Müdafiə Nazirliyi**[2]**-** hərbi müdafiəni və fəaliyyəti həyata keçirən rəsmi dövlət orqanıdır. SSRİ-nin tərkibində olan və müstəqilliyini elan etməmiş Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyi yaradılıb. Fəaliyyət istiqamətindən dolayı informasiyların ehtiyata yığılması və nəzarəti üzərində geniş imkanları var.

b. **Azərbaycan Respublikası Baş Prokurorluğu** [3] **-** məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

c. **Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** [4] — rabitə (telekommunikasiya və poçt) və yüksək texnologiyalar sahələrində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2017-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə birləşdirilərək, onların əsasında Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yaradılmışdır.

d. **"Azercell Telekom" MMC** [5]– GSM, UMTS və LTE texnologiyaları üzrə xidmət göstərən Azərbaycan mobil rabitə şirkəti. "Azercell Telekom" MMC ən çox bazar payı, 4.5 milyondan çox abunəçi sayı və əhatə dairəsi ilə Azərbaycanın lider mobil operatorudur. Geo-lokasiya məlumatları və mobil nömrələrin kimə məxsus

[2] https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respublikas%C4%B1_M%C3%BCdafi%C9%99_Nazirliyi
[3] https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respublikas%C4%B1_Ba%C5%9F_Prokurorlu%C4%9Fu
[4]https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respublikas%C4%B1_N%C9%99qliyyat,_Rabit%C9%99_v%C9%99_Y%C3%BCks%C9%99k_Texnologiyalar_Nazirliyi
[5] https://www.azercell.com/az/company/

olması məlumatlarının qanunsuz ötürülməsi faktları bu qurumu araşdırma obyekti etməyi zəruri etdi.

e. **“Bakcell”**[6] şirkəti 1994-cü ildə təsis edilib və Azərbaycanda mobil rabitə xidmətləri göstərən ilk şirkətdir. Hazırda 5400-dən çox baza stansiyasının fəaliyyətdə olması ilə abunəçilərinin sayı 3 milyondan çoxdur.

f. **"Azerfon"**[7] şirkəti fəaliyyətinə 2007-ci ilin 21 mart tarixində **"Nar Mobile"** ticarət nişanı ilə başlamışdır və şəbəkə Azərbaycanın 80%-ni əhatə edir. Hazırda abunəçilərinin sayı 2 milyondur.

g. **Azərbaycan Hava Yolları**[8] və ya qısaca **AZAL** — Azərbaycanın ən iri aviaşirkəti, milli aviadaşıyıcısıdır. Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (İATA) üzvüdür. AZAL-ın qərargahı Bakı şəhərində yerləşir. 7 aprel 1992-ci il tarixində təsis edilmişdir və ölkənin müstəqillik əldə edildikdən sonra yaradılmış ilk milli aviaşirkətidir. Şirkət Avropa, MDB, Şimali Amerika, Yaxın Şərq və Asiya ölkələrinə sərnişin daşımalarını həyata keçirir.

2. İkinci mərhələ monitorinq mərhələsidir.

İlkin olaraq fərdi məlumatların xüsusi kateqoriya kimi yaranma tarixi, informasiyanın əldə olunması, saxlanılması və istifadəsi ilə bağlı beynəlxalq və yerli qanunvericilik araşdırılıb və qarşılıqlı müqayisəsi verilib.

İkinci olaraq şəxsi həyata müdaxilə və fərdi məlumatların qanunsuz istifadəsi ola biləcək hallar araşdırılıb. Şəxsi həyata müdaxilə hesab olduğu ehtimal olunan faktlar saxlanılıb, növbəti mərhələdə daha detallı araşdırılıb, ekspertlərlə məsləhətləşmələr aparılıb.

Araşdırma zamanı sosial mediada gedən yazılar zaman etibarilə 01 yanvar 2019-cu ildən 30 may 2019-cu il tarixi də daxil olmaqla əsas götürülüb. Onlayn mediada isə şəxslərin adları və açar sözlərlə axtarış edilib, göstərilən dövrü əhatə edən yazılar oxunub, uyğun hesab olunanların fotosu saxlanılıb. Hesabata əlavə olaraq isə online mediada gedən yazıların linkləri verilib.

**3.** Üçüncü mərhələdə isə alınan nəticələrə əsasən hesabatın hazırlanması və yayılması nəzərdə tutulub.

[6] https://www.bakcell.com/az
[7] https://www.nar.az/
[8] https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Hava_Yollar%C4%B1

## 3. Ümumi məlumat

### 3.1. Beynəlxalq Qanunvericilik.

Şəxsi həyatın toxunulmazlığı hüququ və fərdi məlumatlardan istifadə ilə bağlı olaraq Azərbaycanın üzərinə götürdüyü beynəlxalq və iki tərəfli öhdəliklər onun tərəfdaş çıxdığı beynəlxalq müqavilələrdən və imzaladığı hökumətlərarası müqavilələrdən irəli gəlir.

#### *3.1.1. "Əsas İnsan Hüquqları və Azadlıqları haqqında" 1950-ci il Avropa Konvensiyası*

Azərbaycan 1950-ci il "Əsas İnsan Hüquq və Azadlıqları haqqında" Avropa Konvensiyasını[9] ratifikasiya etməklə 8-ci maddədə qeyd olunan şəxsi və ailə həyatına hörmət hüququna təminat verməyi öz öhdəsinə götürmüşdür. 8-ci maddədə nəzərdə tutulan hüququn məqsədi fərdin şəxsi müstəqilliyinin 4 aspektini (şəxsi həyatına hörmət hüququ, ailə həyatı hörmət hüququ, evinə hörmət hüququ, yazışma sirrinə hörmət hüququ) qorumaqla onu dövlət orqanlarının qanunsuz hərəkətlərindən müdafiə etməkdir.

Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın bu maddəsində qeyd olunan şəxsi həyat termininin konkret anlayışını vermir, lakin illər ərzində toplanan məhkəmə presedentlərinə əsaslanaraq şəxsi həyat terminin şamil olunduğu situasiyaları müəyyən etmək mümkündür. Buraya şəxsin fiziki və mənəvi toxunulmazlığı, şəxsin fiziki və sosial kimliyinin aspektləri, şəxsin adı və soyadı, şəxsin şəkillərinə və fotolarına hüququ, şəxsin reputasiyası, cinsi kimliyi, seksual oriyentasiya, seksual həyat, fərdi məlumatların toplanılması və istifadə edilməsi imkanı, şəxsin etnik mənsubiyyət hüququ, dayandırılıb axtarılmasından müdafiə hüququ, əlaqələrin və telefon danışıqlarının izlənilməsi, elektron poçtdan və internetdən istifadənin qanunsuz izlənməsini aid etmək mümkündür.

#### *3.1.2. Mülki və siyasi hüquqlar haqqında 1966-cı il paktı*

Mülki və Siyasi hüquqlar haqqında paktın[10] 17-ci maddəsi fərdin şəxsi və ailə həyatının qorunmasını təsbit edib. Fərdin evinin toxunulmazlığına və məktublarının gizliliyinə, ləyaqət və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz. Pakt bu hüquqlara olan özbaşına və qanunsuz müdaxiləni qadağan və şəxslərin belə qəsdlərdən qanunla qorunmaq hüququnun olduğunu təstiq edib.

[9] https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf
[10] https://www.ohchr.org/en/professionalinterest/pages/ccpr.aspx

### *3.1.3. "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənilməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Avropa Şurası dövlətlərinin imzaladığı Konvensiyası*

Azərbaycan "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənilməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Avropa Şurası dövlətlərinin imzaladığı Konvensiyanı [11] ratifikasiya etmişdir. Konvensiyanın qəbul edilmə məqsədi vətəndaşlığı və yaşayış yerindən asılı olmayaraq fərdlərin hər bir tərəfin ərazisində əsas hüquq və azadlıqlarına, o cümlədən, xüsusilə fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə bağlı şəxsi həyatın toxunulmazlığı hüququna hörmət edilməsini təmin etməkdən ibarətdir. Konvensiya şəxsi həyatın toxunulmazlığı termini adı altında fərdi məlumatların qorunması hüququnu nəzərdə tutur. Azərbaycan bu konvensiyaya tərəfdaş çıxaraq öz üzərinə fərdlərin məlumatlarını ədaləti əldə etmək, qanuni məqsədlər üçün saxlayıb və istifadə etmək kimi öhdəliklər götürüb. Azərbaycan Konvensiya ilə müəyyən edilən məlumatların qorunması üzrə dövlətdaxili hüququn müddəalarının pozulması hallarında müvafiq sanksiyalar və hüquqi müdafiə vasitələrini müəyyən etməyi öz üzərinə götürür. Digər tərəfdaş dövlətlərlə əməkdaşlıq müstəvisində fərdi məlumatların qorunması sahəsində qanunvericilik və inzibati təcrübə haqqında məlumatın verilməsi üzrə səlahiyyətli icra hakimiyyəti orqanı Azərbaycan Respublikası Ədliyyə Nazirliyidir.

Azərbaycan Konvensiyaya qoşularkən bəyanat hissəsində Ermənistan tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında olmadığını bildirib.

### *3.1.4. İnternet istifadəçilərinin hüquq və mənafelərinin üstün səviyyədə qorunması üçün Avropa Şurası Nazirlər Komitəsinin üzv Dövlətlərə İnternet istifadəçiləri üçün İnsan Hüquqları Bələdçisinə dair Tövsiyəsi*

İnternet istifadəçilərinin hüquq və mənafelərinin üstün səviyyədə qorunması üçün Avropa Şurası Nazirlər Komitəsinin üzv Dövlətlərə İnternet istifadəçiləri üçün İnsan Hüquqları Bələdçisinə dair Tövsiyəsində[12] qeyd olunub ki, internetin ictimai xidmət dəyəri var. Tövsiyə həmçinin Avropa Şurasına üzv dövlətlərin yurisdiksiyaları altında olan hər bir şəxsin AİHK-da təsbit edilmiş insan hüquqları və əsas azadlıqlarını təmin etmək öhdəliyinin olduğu öz əksini tapıb. Tövsiyəyə əlavədə internet istifadəçilərinin bilməli olduğu və dövlətlərin əməl etməli olduğu prinsiplər

[11] https://www.coe.int/en/web/conventions/full-list/-/conventions/treaty/108

[12] https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=09000016804d5b31

təsbit edilib. Bələdçi istifadəçiyə birbaşa müraciət edir. Bu sənədlə məlumatların istifadəsinin 2 prinsipi qeyd olunub:

1. İstifadəçinin razılığı;

2. İstifadənin qanuniliyi;

Şəxsi həyata hörmət və məlumatların qorunmasına dair olan tövsiyəyə görə istifadəçilərin internetden istifadə etdikləri zaman onların şəxsi məlumatlarının müntəzəm istifadə olunduğu dövlət orqanlarının və özəl şirkətlərin istifadəçilərin məlumatlarını istifadə edərkən xüsusi qayda və prosedurlara hörmət etmək öhdəliyi daşıyırlar. Şəxsi məlumatların yalnız fərdlərin razılığı və ya qanunla müəyyən edildikdə istifadə oluna bilər. Şəxslər ümumi nəzarət və ya dinləmə tədbirlərinə məruz qalmamalıdır. Qanunla müəyyən edilmiş hallar istisnadır, lakin bu qanunlar və ya siyasət aydın şəkildə və əlçatan olmalıdır.

### 3.2. Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsində şəxsi həyata hörmət və fərdi məlumatların qorunması hüququ

Avropa Məhkəməsi şəxsi həyata hörmət hüququ və fərdi məlumatların toplanılması və saxlanılması məsələlərinə tez-tez toxunur. Bunlar fərdi məlumatların konfidensiallığı, istifadəsi və açıqlanması, şəxsin sağlamlığı barədə məlumatlar, dövlət təhlükəsizlik xidməti və digər orqanlar tərəfindən toplanılan məlumatlar, polis müşahidəsi, fərdi saxlayıb üzərində şəxsi axtarış aparmaq və sair işlərlə bağlıdır.

Avropa Məhkəməsinin bu mövzuda xeyli sayda qərarları var və çox zaman bu qərarlarda Məhkəmənin yanaşması yerli məhkəmələrin yanaşmasından fərqlidir.

Avropa Məhkəməsi öz qərarlarında 8-ci maddənin 2-ci bəndindəki legitim məqsədləri nəzərə alsa da, heç də hər zaman şəxsi həyata müdaxiləni əsaslı saymayıb.

*Rotaru Rumıniyaya qarşı* [13] - işində Böyük Palata ictimaiyyətə açıq olan məlumatların özəl həyat çərçivəsinə daxil ola biləcəyini qeyd edib. Bu işdə Məhkəmə müəyyən edib ki, şəxsi və ya ictimai xarakterli materialların və ya məlumatların, şəxsin siyasi fəaliyyəti haqqında informasiyaların təhlükəsizlik xidməti və ya digər dövlət orqanları tərəfindən sistematik şəkildə toplanması və saxlanması, xüsusən də həmin məlumatlar şəxsin uzaq keçmişinə aiddirsə, 8-ci

[13] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-78227%22]}

maddədə nəzərdə tutulmuş hüquqlara müdaxilə təşkil edir. Saxlanılan məlumatların sonradan istifadə edilib-edilməməsi bu qənaəti dəyişdirmir.

Avropa Məhkəmə dövlətin qiymətləndirmə sərbəstliyinin hüdudlarını müəyyənləşdirmək üçün müvafiq məlumatların xarakterini nəzərə alır.

*"G.S.B İsveçrəyə qarşı"*[14] işində Ərizəçi İsveçrə və Birləşmiş Ştatlar arasında vergi ödəyicilərinin bank məlumatlarının ötürülməsi haqqında razılığın onun 8 və 14-cü maddə ilə hüquqlarına müdaxilə olduğunu iddia edib. Məhkəmə bu işdə ərizəçinin işi ilə əlaqədar açıqlanan açıqlama yalnız bank məlumatlarına, yəni yalnız maliyyə məlumatlarına aid olduğundan buna görə də heç bir şəkildə intensiv detalların və məlumatların ötürülməsini nəzərdə tutmayıb və bu, güclü qorunmaya dəyər duymayıb.

Məhkəmə qeyd edir ki, fərdi məlumatların qorunması fərdin Konvensiyanın 8-ci maddəsi ilə təmin edilən şəxsi və ailə həyatına hörmət hüququndan istifadə etməsi üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, fərdin şəxsi həyatına aid olan, məxfi reyestrdə saxlanılan məlumatların istifadəsi və açıqlanması 8-ci maddənin 1-ci bəndinin tətbiq dairəsinə düşür.

*"Leander İsveçrəyə qarşı"* [15] işində məhkəmə müəyyən edib ki, gizli polis reyestrində cənab Leanderin şəxsi həyatı ilə əlaqəli məlumatların olması, cənab *Leander*ə bunu təkzib etmək imkanı verilməsindən imtina edərək, belə məlumatların saxlanması və sərbəst buraxılması, 8-ci maddənin 1-ci bəndi - *şəxsi həyatına hörmət hüququna müdaxilə idi.*

Məhkəmə öz qərarlarında fərdi məlumatların qorunması haqqında dövlətlərin daxili qanunvericiliyi ilə bağlı öz yanaşmasını göstərib. Məhkəmənin yanaşmasına görə ölkədaxili qanunvericiliklərdə fərdi məlumatların Konvensiyanın 8-ci maddəsindəki təminatlara zidd istifadə edilməsinin qarşısını almağa yönələn müvafiq təminatlar yer almalıdır.

"*S. və Maper Birləşmiş Krallığa qarşı*"[16] məhkəmə işində məhkəmə müəyyən edib ki, mühafizə edilən məlumatların polis tərəfindən istifadəsi bir yana qalsın, hətta onların avtomatik emal prosesinə məruz qaldığı hallarda da bu cür təminatlara xüsusilə böyük ehtiyac duyulur. Bütün bunların yanında Avropa Məhkəməsinin fərdi məlumatların toplanılmasına qarşı duruşu hər zaman eyni olmayıb. Ayrı-ayrı işlərdə ərizəçilərin əməllərinin toplumda yaratdığı narahatlığın ölçüsünə və müdaxilənin demokratik cəmiyyətdə nə qədər zəruri və balanslı olduğuna qiymət

[14] https://www.legal-tools.org/doc/235c4e/pdf/

[15] https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22leander%22],%22documentcollectionid2%22:[%22GRANDCHAMBER%22,%22CHAMBER%22],%22itemid%22:[%22001-94309%22]}

[16] https://rm.coe.int/168067d216

verərək sonda 8-cu madənin pozulmadığı qənaətinə gəlib. Belə ki, şəxsi məlumatların təhlükəsizlik xidməti orqanları tərəfindən toplanıldığı və saxlanıldığı hallar şəxslərin cinayətkar fəaliyyəti ilə bağlıdırsa bu 8-ci maddəyə müdaxilə təşkil etmir.

Məhkəmə "*Qardel Fransaya qarşı"*[17] və "*M.B. Fransaya qarşı"*[18] işlərində seksual cinayət törətmiş şəxslərə dair məlumatların milli məlumat bazasına daxil edilməsinin 8-ci maddəyə zidd olmadığı qənaətinə gəlib. Bununla belə, məlumatların cinayətkar fəaliyyətlə əlaqədarlığı onların səmərəli hüquq müdafiə mexanizmləri ilə müdafiəsini istisna etmir.

"*Qardel Fransaya qarşı"*[19] işində məhkəmə müəyyən edib ki, daxili qanunvericilik bu növ məlumatların yalnız aktuallıq kəsb etdikdə saxlanılmasını və onlardan sui-istifadə edilməsinə və hüquqazidd şəkildə istifadə edilməsinə qarşı səmərəli müdafiənin olmasını xüsusi olaraq təmin etməlidir.

Məhkəmənin yanaşmasına görə sağlamlıq barədə məlumatların konfidensiallığına riayət edilməsi Konvensiyanın iştirakçısı olan bütün dövlətlərin hüquq sisteminin mühüm sistemidir. Sağlamlıqla əlaqədar məlumatlar həm həkim sirri, həmdə fərd barəsində şəxsi məlumatlar növündəndir və hər iki kateqoriyada müdafiə olunur.

*"Z Finlandiyaya qarşı"*[20] işində Məhkəmə konfidensiallığın təkcə pasiyentin şəxsi həyatının toxunulmazlığı üçün deyil, həm də onun tibb personalına və bütövlükdə səhiyyəyə olan inamın qorunub saxlanılması üçün vacib olduğunu müəyyən edib. Belə məlumatlar qorunmazsa, tibbi yardıma ehtiyacı olanlar müvafiq müalicə almaları üçün zəruri olan, şəxsi və intim xarakter daşıyan bu cür məlumatları açıqlamaqdan və hətta tibbi yardım üçün müraciət etməkdən çəkinə bilərlər. Bununla da onlar öz sağlamlıqlarını və söhbət yoluxucu xəstəliklərdən getdiyi hallarda həm də cəmiyyətin sağlamlığını təhlükə altına qoya bilərlər. Buna görə də Məhkəmə sağlamlıq barədə fərdi məlumatların Konvensiyanın 8-ci maddəsində yer alan təminatlara zidd formada təqdim edilməsinin və açıqlanmasının qarşısını almaq üçün daxili qanunvericilikdə müvafiq təminatlar nəzərdə tutulmalı olduğunu önə çəkib.

[17]https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22\%22CASE%20OF%20GARDEL%20v.%20FRANCE\%22%22],%22documentcollectionid2%22:[%22GRANDCHAMBER%22,%22CHAMBER%22],%22itemid%22:[%22001-96457%22]}
[18] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-96363%22]}
[19]https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22Gardel%22],%22documentcollectionid2%22:[%22GRANDCHAMBER%22,%22CHAMBER%22],%22itemid%22:[%22001-96457%22]}
[20] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-58033%22]}

Dövlət gizli müşahidə tətbiq etdikdə və nəzarət altında olan şəxlər bu müşahidənin mövcudluğundan xəbərsiz olduqda və nəticədə bu tədbirdən şikayət etmək imkanı olmadıqda həmin şəxslər özləri də bilmədən 8-ci maddədə nəzərdə tutulmuş hüquqlarından və milli və ya Konvensiya orqanlarında hüquqi müdafiə vasitələrindən istifadə etmək imkanından məhrum ola bilərlər. Xüsusən ona görə ki, texnoloji inkişafın getdiyi bir mühitdə casusluq və müşahidə vasitələri təkmilləşir və dövlət əsaslı olaraq bu vasitələrlə iğtişaşın, cinayətin və terrorizmin qarşısını almaqda maraqlı ola bilər.

*"Kennedi Birləşmiş Krallığa qarşı"* [21] işində məhkəmə müşahidə tədbirlərinin məxfiliyi bu tədbirlərdən şikayət edilməsinin faktiki olaraq qeyri-mümkün olması ilə və milli məhkəmə orqanlarının və Avropa Məhkəməsinin nəzarəti xaricində olması ilə nəticələnməməli olduğu qərarına gəlib.

Məhkəmənin gündəliyində olan aktual mövzulardan biri də kommunikasiyaların gizli şəkildə izlənilməsidir.

*"Veber və Saraviya Almaniyaya qarşı"*[22] işində məhkəmə kommunikasiyaların gizli qaydada izlənilməsi sisteminin yaradılmasına icazə verən qanunvericiliyin sadəcə mövcudluğu həmin qanunvericiliyin tətbiq edilə biləcəyi bütün şəxslərin müşahidə altına düşməsi təhlükəsini doğurduğu qənaətinə gəlib.

Ölkənin qanunvericilik orqanları və digər hakimiyyət orqanları bu sahədə ən yaxşı siyasətin hansı siyasət ola biləcəyini müəyyənləşdirməkdə geniş müşahidə sərbəstliyinə malik olsalar da, iştirakçı dövlətlər yurisdiksiyaları daxilində olan şəxslərin gizli müşahidəsi sahəsində qeyri-məhdud diskresion səlahiyyətə malik deyillər. Məhkəmə təsdiq edib ki, iştirakçı dövlətlər casusluğa və terrorizmə qarşı mübarizə adı altında münasib bildikləri istənilən tədbirləri tətbiq edə bilməzlər, əksinə, hansı müşahidə sistemi tətbiq edilirsə edilsin, sui-istifadə hallarına qarşı adekvat və səmərəli təminatlar mövcud olmalıdır.

Məhkəməyə görə, vətəndaşları gizli müşahidə etmə səlahiyyətlərinə yalnız o halda dözümlü yanaşmaq olar ki, onlar demokratik təsisatların qorunması üçün zəruridir (*Rotaru Rumıniyaya qarşı*[23]).

"*Segerstedi-Viberq və başqaları İsveçə qarşı"* [24] işində isə məhkəmə belə müdaxilələrin - gizli müşahidələrin yalnız münasib və yetərli səbəblərlə

[21] https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22\%22CASE%20OF%20KENNEDY%20v.%20THE%20UNITED%20KINGDOM\%22%22],%22documentcollectionid2%22:[%22GRANDCHAMBER%22,%22CHAMBER%22],%22itemid%22:[%22001-98473%22]}

[22] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-76586%22]}

[23] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-58586%22]}

[24] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-75591%22]}

əsaslandırılmalı və qarşıya qoyulan qanuni məqsədə və ya məqsədlərə mütənasib olmalı olduğunu önə çəkib.

Məhkəmə hər hansı prossesual təminatlar olmadan polis tərəfindən aparılan məxfi əməliyyatlar gedişində radiosiqnalları ötürən qurğular vasitəsi ilə danışıqların dinlənilməsinin və qeydə alınmasının pozuntu olduğu qənaətinə gəlib (*Bıkov Rusiyaya qarşı*[25]).

GPS qurğusu ilə şəxsin məkan və getdiyi yerlərin məlumatlarının toplanmasının və saxlanmasının şəxsi həyata müdaxilə təşkil etdiyini Məhkəmə "*Uzun Almaniyaya qarş"ı* işində göstərib.

Məhkəmənin insan hüquqları müdafiəçiliyi ilə məşğul olan şəxslərin sırf fəaliyyətlərindən dolayı xüsusi müşahidə altında olması hallarına da yanaşması vardır. Qanunda nəzərdə tutulmadığı halda, daxili əmr əsasında şəxslərin siyahısının yaradılması və onların məlumatlarının davamlı toplanılması 8-ci maddəyə müdaxilə hesab olunur.

*"Şimolovos Rusiyaya qarşı"*[26] işində ərizəçinin adının qeydə alındığı məlumat bazası nazirin əmri əsasında yaradılmışdı, həmin əmr isə dərc olunmayıb və ictimaiyyət üçün əlçatan deyildi. Buna görə də ictimaiyyət fərdlərin nə üçün orda qeydə alınmasından, hansı növ məlumatların oraya daxil edilməsindən, məlumatların orda hansı müddətədək saxlanılmasından və istifadə edilməsindən və məlumat bazasında kimin nəzarət etməsindən xəbər tuta bilməzdi. Məhkəmə şəxsin insan hüququları müdafiəsi ilə məşğul olan təşkilatın üzvü olmasından dolayı polisin məxfi məlumat bazasında qeydə alındığı və hərəkətlərinin izlənildiyi işdə 8-ci maddənin pozulduğunu müəyyən edib.

Telefon danışıqlarının dinlənilməsi və digər formada izlənilməsi və yazışmaların toxunulmazlığına ciddi müdaxilə təşkil edir və buna görə də bu tədbir dəqiq şəkildə ifadə edilmiş qanunvericilik normalarına əsaslanmalıdır. "Qanunda nəzərdə tutulmuş" ifadəsi təkcə daxili qanunvericiliyə riayət etmək tələbini bildirmir, həmdə qanunun kefiyətini nəzərdə tutur və onun qanunun aliliyi prinsipinə uyğun olmasını tələb edir *("Halford Birləşmiş Krallığa qarşı"*[27]*).*

Müəyyən şərtlər mövcud olduğu təqdirdə ərizəçi sadəcə olaraq məxfi müşahidə tədbirlərinin və ya belə tədbirlərə icazə verən qanunvericiliyin mövcudluğu

[25] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-91704%22]}
[26] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-105217%22]}
[27] https://hudoc.echr.coe.int/eng?i=001-58039

səbəbindən pozuntu qurbanı olduğunu iddia edə bilər *("Roman Zaxarov Rusiyaya qarşı"*[28] *[BP], 171-172-ci bəndlər).*

Əsaslı şübhə olmadan və qanunla müəyyən edilməyən hallarda "saxla-yoxla-burax" qaydasında şəxsi axtarış 8-ci maddə ilə qorunan şəxsi həyat hüququna müdaxilə hesab olunur.

Məhkəmə qərara alıb ki, şəxsin digər şəxslərlə qarşılıqlı əlaqələrinin müəyyən bir sferası vardır ki, həmin əlaqələr hətta ictimai yerdə baş versə belə, "şəxsi həyat" anlayışının tətbiqi dairəsinə düşür.

"*Gillan və Kinton Birləşmiş Krallığa qarşı"*[29] işində nümayişdə iştriak etmək üçün toplantı yerinə yol alan mülki vətəndaşın – Gillanın və sarı jiletli jurnalist – Kintonun polis tərəfindən "Terrorism Act 2000" aktının 40-cı maddəsinə əsas gətirilərək ictimai yerdə saxlanılıb yoxlanılması faktında Məhkəmə müəyyən edib ki, şəxsin hüquq pozuntusu törətdiyinə dair əsaslı şübhə olmadan ictimai yerdə onun dayandırılması və üzərində axtarış aparılması 8-ci maddənin pozuntusudur.

## 3.3. Yerli qanunvericilik.

### *3.3.1. Azərbaycan Respublikası Konstitusiyası*

Şəxsi həyatın toxunulmazlığı hüququ vətəndaşların konstitusion hüququdur. Bununla bağlı rəhbər norma Azərbaycan Respublikası Konstitusiyasının[30] "Şəxsi toxunulmazlıq hüququ" adlı 32-ci maddəsində öz əskini tapmışdır. Fərdin şəxsi həyatı ilə bağlı olan olan məlumatların toplanılması, saxlanılması, istifadəsi və yayılması bir başa onun iradəsindən asılıdır. Dövlətin şəxslər haqqında topladığı məlumatlarla onların tanış olmaq və həqiqətə uyğun olmayan məlumatların çıxarılması və ya dəyişdirilməsini tələb etmək hüququ var. Konstitusiya fərdi məlumatların dairəsi, istifadəsi və mühafizəsi ilə bağlı olaraq məsələlərin bu sahədə olan qanunvericiliklə tənzimləndiyini bir başa olaraq qeyd edir.

### *3.3.2. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" AR Konstitusiya Qanunu*

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" AR Konstitusiya Qanununda[31] qanunverici müyyən edib ki, Konstitusiyanın 32-ci maddəsi ilə təsbit olunan Şəxsi toxunulmazlıq hüququ yalnız bu hüququn mahiyyətini dəyişdirmədən dövlət təhlükəsizliyi mənafeləri, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması,

---

[28] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-142532%22]}

[29] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-96585%22]}

[30] http://www.e-qanun.az/framework/897

[31] http://www.e-qanun.az/framework/1881

cinayətin qarşısının alınması məqsədi ilə, iğtişaşların qarşısının alınması, ictimai qaydanın təmin edilməsi və ölkənin iqtisadi rifahı mənafeləri üçün məhdudlaşdırıla bilər.

### *3.3.3. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanunu*

Qanunverici fərdi məlumatların toplanılması, işlədilməsi və mühafizəsi ilə bağlı məsələləri birbaşa tənzim etmək üçün "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununu[32] qəbul edib. Qanunun qəbul olunma məqsədi əsas insan və vətəndaş hüquqlarını və azadlıqlarını, o cümlədən şəxsi və ailə həyatının sirrini saxlamaq hüququnu müdafiə etməkdən ibarətdir. Qanuna görə fərdi məlumatlar şəxsin kimliyini bir başa və dolayısı ilə müəyyən etməyə imkan verən istənilən məlumat ola bilər. Bu qanunun tənzim etdiyi münasibətlərin iştirakçıları qismində fərdi məlumatların subyekti (şəxs), mülkiyyətçi və operator çıxış edir. Burada subyekt haqqında fərdi məlumatlar toplanılan, mühafizə olunan və kimliyi müəyyənləşdirilən şəxsdir. Mülkiyyətçisi isə qanunvericilik qaydasında fərdi məlumatların informasiya ehtiyatları üzrəində tam sahiblik, istifadə və sərəncam hüququ olan dövlət və yerli özünü idarə orqanı, hüquqi və ya fiziki şəxsdir. Operator bu məlumatların toplanılması və istifadəsi hüququ və mühafizəsi öhdəliyi olan mülkiyyətçi və yaxud onun hüquq və öhdəliklərinin həvalə olunduğu orqanlar, hüquqi və ya fizki şəxslərdir.

Fərdi məlumatların informasiya ehtiyatları və sistemini formalaşdıran səlahiyyətli subyekt bu informasiya ehtiyatlarını formalaşdırarkən Konstitusiyada təsbit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarından qaynaqlanan qanunçuluq, konfidensiallıq, könüllülüyün məcburiliklə uzlaşdırılması prinsiplərinə əməl etmək öhdəliyi vardır.

Fərdi məlumatların mühafizəsi və hüquqi rejimi ilə bağlı normalar müəyyən edir ki, məlumatlar toplandığı andan mühafizə edilməlidir. Bu mühafizə mülkiyyətçi, operator və bu məlumatlara çıxışı olan digər istifadəçilər tərəfindən təmin edilməlidir. Hüquqi rejiminə görə fərdi məlumatların açıq, konfidensial və xüsusi kateqoriyalarının bölgüsü aparılıb. Açıq məlumatlara adsızlaşdırılmış, ümumi istifadə üçün toplanılmış və ya subyektin özü tərəfindən açıq elan olunmuş məlumatlar aiddir. Şəxsin adı, soyadı və atasının adı növünə görə daimi açıq məlumatlardır. Bu kateqoriya məlumatların konfidensiallığının təmin olunması tələb olunmur. Qanunverici bu qanunda konfidensial fərdi məlumatları bir kateqoriya kimi ayırsa da bu məlumatların qanunla müəyyən olan dairəsini təsbit etməmişdir. Xüsusi kateqoriyalı məlumatlar isə açıq və konfidensial məlumatlardan ibarət ola bilər.

[32] http://www.e-qanun.az/framework/19675

Bu qanunun tələblərinin pozulmasına görə məsuliyyətə cəlb olunma və məsuliyyət tədbirlərinə aid məsələlərlə bağlı dövlət müvafiq icra hakimiyyəti orqanına fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi sahəsində müvafiq qanunvericiliyin tələblərini pozmuş şəxslərin müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görməyi hüquq kimi tanınıb. Bu qanunun pozulmasında təqsirli bilinən şəxlər ölkə qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunurlar. Pozuntularla bağlı cinayət hüquqi sanksiya Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 155[33] və 156[34]-cı maddəsində nəzərdə tutulmuşdur. Yazışma sirrinin pozmağa görə şəxslər cərimə və ya ictimai işlər, şəxsi həyatın toxunulmazlığının pozulmasına görə isə cərimə, ictimai və ya islah işləri ilə cəzalandırılırlar. Şəxsi həyatın toxunulmazlığının pozulması cinayətinin subyekti ümumi və xüsusi (vəzifəli şəxs) subyekt ola bilər. Cinayət xüsusi subyekt tərəfindən törədildiyi halda həmin şəxs vəzifə tutma hüququndan məhrum edilmə və ya azadlıqdan məhrum etmə cəzası tətbiq edilə bilər.

### 3.3.4. *"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunu*

Konstitusiyanın 50-ci maddəsində təsbit edilmiş məlumat azadlığı hüququnu sərbəst şəkildə təmin etmək məqsədi ilə qanunverici orqan "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunu[35] qəbul edib. Bu Qanun informasiya əldə edilməsi, informasiya sahibinin məlumatları qorumaq haqqında öhdəliklərini və qanuna zidd hərəkət və hərəkətsizlik hallarında onların məsuliyyəti məsələlərini tənzim edir. Qanunun əsas anlayışlar adlı 3-cü maddəsində informasiya sahibi və fərdi məlumat terminlərinə hüquqi anlayış verilib.

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulduğundan fərqli olaraq bu qanunda qanunverici şəxsi və ailə həyatına dair

---

[33] Maddə 155. **Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma**

Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma—
*min manatdan iki min* manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.[248]

[34] Maddə 156. **Şəxsi həyatın toxunulmazlığını pozma**

156.1. Şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi qanunsuz toplanılması—[249]
*min manatdan iki min* manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.[250]
*156.2. Eyni əməllər:*[251]
*156.2.1. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;*
*156.2.2. məsafədən idarə edilən pilotsuz uçan aparatlardan istifadə etməklə törədildikdə –*
üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə *iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya* iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[252]

[35] http://www.e-qanun.az/framework/11142

məlumatlar fərdi məlumatlar adı altında ümumiləşdirilmiş və şəxsiyyəti birbaşa və ya dolayısı ilə identikləşdirməyə imkan verən faktlar və bilgilərdən ibarət olan məlumatları fərdi məlumatlar kateqoriyasına daxil edib.

Sorğucular üçün əlçatanlılığına görə məlumatları açıq və əldə edilməsi məhdudlaşdırılan olmaqla 2 yerə bölünür. Əldə edilməsi məhdudlaşdırılan informasiyalar isə məxfi və konfidensial məlumatlardan ibarətdir. Məxfi məlumatlar dövlət sirrini təşkil edən informasiyalardır. Konfidensial məlumatlar isə əhatə dairəsinə görə vətəndaşların legitim maraqlarının qorunması məqsədi ilə çatımlılığı qısıtlanan peşə, kommersiya, istintaq və məhkəmə sirləridir. Əldə olunma növünə görə fərdi məlumatlar açıq və konfidensial kateqoriyalara ayırılır. Bu qanunun 38-ci maddəsində qanunverici orqan bir daha şəxsi və ailə həyatında dair məlumatları fərdi məlumatlar kateqoriyasına daxil etmiş və əldə edilməsi qanunla qadağan edilən fərdi məlumatların dairəsi müəyyən etmişdir. Əldə olunması qadağalanmış şəxsi həyata dair məlumatlar etnik və irqi mənsubiyyət, məhkumluq, sağlamlıq, şəxslərin özəl xüsusiyyətləri, qabiliyyətləri və xarakterlərinin digər cizgilərini müəyyən etməyə imkan verən informasiyalardır. Əldə edilməsi qanunla qadağan edilən ailə həyatı məlumatlarına isə ailə həyatının müxtəlif məqamları və övladlığa götürmə məlumatları ilə yanaşı cinsi həyatla bağlı bilgilər də daxil edilib.

Qanunda informasiya əldə etmək azadlığı ilə bağlı birbaşa olaraq yaş məhdudiyyəti nəzərdə tutulmasada yetkinlik yaşına çatmayanlar üçün bəzi məhdudiyyətlər vardır. Yetkinlik yaşına çatmayan şəxsin informasiya ilə tanış olması onun mənşəyi haqqında sirri pozursa bu əldə edilməsi məhdudlaşdırılan ailə həyatına dair məlumatları növünə aiddir. Azərbaycan Respublikası Mülki Məcəlləsinə görə isə yetkinlik yaşını 18 yaşdır.

Fərdi məlumatlara olan informasiya əldə etmək hüququna tətbiq edilən zaman məhdudiyyətlərini qanunverici birbaşa olaraq göstərib. Bu məhdudiyyət fərdi məlumat ehtiyata alındığı və sənədləşdirildiyi gündən 75 il, informasiya subyektinin vəfatından sonra 30 il müddətində qüvvədədir. Əgər ölüm faktı müəyyən deyilsə subyektin doğulduğu tarixdən 110 il müddətində qüvvədədir.

### *3.3.5. "Biometrik informasiya haqqında" Azərbaycan Respublikası Qanunu*

Biometrik informasiya fərdi məlumatların informasiya ehtiyatlarında fərdin biometrik məlumatları olan resursdur. "Biometrik informasiya haqqında" Azərbaycan Respublikası Qanununa[36] görə biometrik məlumatlar fiziki şəxsin fizioloji xüsusiyyətlərini xarakterizə edən, onu digər məlumatlarla uzlaşdıraraq identifikasiya etməyə imkan verən və maddi daşıyıcıda əks etdirilən fərdi məlumatlardır. Əlbarmaq və ovuc izləri, üz təsviri, gözün qüzehli və tor qişası, səs

[36] http://www.e-qanun.az/framework/15144

fraqmenti və onun akustik parametrləri, dezoksiribonuklein turşusu (DNT) analizinin nəticələri, bədən ölçüləri, bədənin xüsusi əlamətlərinin və qüsurlarının təsviri, yazı xətti və imzası və sairə kimi məlumatlar özündə şəxsin biometrik kefiyətlərini daşıyan bilgilərdir. Biometrik məlumatların toplanmasının fəaliyyət sahəsinə şəxsiyyəti təsdiq edən sənədlərin rəsmiləşdirilməsi, miqrasiya və sərhəd nəzarəti, informasiya təhlükəsizliyinin təmin edilməsi və elektron imza vasitələrinin qeydiyyatı, fövqəladə hadisələrlə əlaqədar xilasetmə işləri, milli DNT məlumat bankının formalaşdırılması, ictimai asayişin qorunması və cinayət təqibi bağlı məsələlər aiddir.

### *3.3.6. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası qanunu*

Telekommunikasiya sahəsində fəaliyyətin hüquqi, iqtisadi, təşkilati əsaslarını müəyyənləşdirmək və telekommunikasiya resurslarının məqsədyönlü planlaşdırılmasını və ədalətli istifadə olunmasını tənzimləmək məqsədi ilə "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanunu[37] qəbul olunub. Qanununa edilən son dəyişiklikdən sonra operatorlar, provayderlər qanunla müəyyən edilmiş qaydada əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin keçirilməsi üçün şərait yaratmağa, bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi şərtlərə uyğun telekommunikasiya şəbəkələrini əlavə texniki vasitələrlə təchiz etməyə, təşkilati məsələləri həll etməyə və bu tədbirlərin keçirilməsində istifadə olunan üsulları gizli saxlamağa borcludur. Bu dəyişiklik siqnalötürücülər vasitəsi ilə danışıqların dinlənilməsi və GPS qurğuları vasitələri ilə şəxslərn məkan və getdiyi yerlər haqqında məlumatların əldə edilməsinə şərait yaradır (bax:1.3/*Veber və Saraviya Almaniyaya qarşı*[38] ).

### *3.3.7. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunu*

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunu[39] ilə müəyyən edir ki, istifadəçilər əldə edilməsi məhudlaşdırılanlar istisna olmaqla digər məlumatlarla işləməyə buraxılmaq üçün zərurət əsaslandırmağa məcbur deyillər. Bu qanun törəmə informasiyanın qanuni əsaslarla əldə olunan məlumatlardan yarandığını və yalnız alınma mənbəyi göstərilməklə istifadəsinin mümkünlüyünü müəyyən edib. Qanuna əsasən fiziki və hüquqi şəxs özləri barəsindəki informasiya ehtiyatlarından kimin və hansı məqsədlərlə istifadə etdiyini bilmək hüququ vardır.

---

[37] http://www.e-qanun.az/framework/10663
[38] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-76586%22]}
[39] http://e-qanun.gov.az/framework/3525

Şəxsi həyat və ifadə azadlığı arasında balansı qorumaq üçün qanunverici orqan mətbuatın əməl etməli olduğu prinsipləri müəyyən etməlidir və dövlət hakimiyyət orqanlarının bu balansın nə qədər qorunduğunu yoxlamaq hüququ var.

### *3.3.8. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanunu*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanunun[40] 10-cu maddəsində qanunverici orqan birbaşa göstərib ki, qanunla qorunan sirləri, *habelə yayılması qadağan edilən digər informasiyanı* yaymaq, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan əsasız və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

## 4. Vəziyyətin dəyərləndirilməsi

Qeyd olunmalıdır ki, informasiyanın əldə edilməsi və istifadəsi məsələrini tənzimləyən qanunvericilikdə olan boşluqlar dövlət orqanları və fəaliyyəti bu məlumatlardan istifadə ilə birbaşa bağlı olan hüquqi şəxslər üçün məsuliyyətdən yayınmağa münbit şərait yaradır.

Media hüququ eksperti hüquqşünas Ələsgər Məmmədli hesab edir ki, qanunvericiliyə edilən son dəyişiklər mobil operatorlara məhkəmə qərarı olmadan şəbəkə içərisinə xüsusi avadanlıqların yerləşdirilməsi və insanların fərdi məlumatlarının izlənməsi imkanını verir. Məhkəmə qərarı olmadan şəxslərin harada yerləşdiyi haqda informasiya, trayektoriya və s. haqda informasiya toplanır.

"Telekommunikasiya haqqında" Qanunda yazılıb ki, mobil operatorlar müvafiq qurumun yerləşdirdiyi bu tip qurğuları gizli saxlamaq məcburiyyətindədir və bununla bağlı məlumatlar sızdırmamalıdır. Hüquqşünas qeyd edir ki, operatorların ofislərinə və ya serverlərinə yerləşdirilən qurğuların hansı qanunla və ya hansı məhkəmə qərarı ilə yerləşdirilməsi və lazım olan məlumatları kimlərin izləyəcəyi ilə bağlı qanunda konkret müddəa yoxdur. Daha doğrusu, bu sual açıq qalıb və bu, tamamilə icra strukturlarının öhdəliyinə buraxılıb[41].

Qanunvericiliyə edilən dəyişikliklərdən sonra mobil operatorlara şəbəkələrə izləyici avadanlıqların yerləşdirilməsinə və insanların izlənməsinə icazə verir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən ona ünvanlanan sorğuya[42] cavab olaraq bildirib ki, qanuna əsasən, fiziki və hüquqi şəxslərin telefon danışıqlarına

[40] http://www.e-qanun.az/framework/30
[41] https://www.bbc.com/azeri/azerbaijan-46875038
[42] https://www.bbc.com/azeri/azerbaijan-46875038

qulaq asılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması mümkündür. Amma bunu hüquq-mühafizə orqanları məhkəmənin qərarı əsasında və istintaq üçün həyata keçirilir.

Araşdırma zamanı bəlli olub ki, məlumatların qanunsuz ötürülməsi ilə bağlı vətəndaşların hüquqlarını ən çox pozan mülkiyyətçilər (hökumət strukturuna daxil olmayan təsisatlar) mobil operatorlar və sığorta şirkətləridir.

Mobil operatorların bu sahədə olan qanunsuz fəaliyyətlərinə lokasiya məlumatlarının qanunsuz olaraq üçüncü şəxslərə və mobil nömrənin istifadə hüququnun kimə məxsus olduğunu digər kommersiya təşkilatlarına icazəsiz ötürülməsi aiddir.

Lokasiya məlumatlarının qanununsuz ötürülməsi ilə bağlı hallar ən çox 2019 19 yanvar Bakıda baş tutan mitinqdən sonra baş verib. Bu mitinqdə iştirak edən ictimai fəal Sənubər Heydərova "BBC News Azerbaijan" portalına verdiyi müsahibədə[43] bildirmişdir:

*"Çərşənbə axşamı anama zəng gəlib ki, Binəqədi rayon 4 saylı polis bölməsinə gəlməlisiniz. Anam gələ bilməyəcəyini dedikdə ona, "nə vaxt imkanınız var, o zaman gəlin" deyiblər. Axşam gedəndə isə istifadə etdiyi nömrənin kimə məxsus olmasını, yaşadığı ünvanı soruşub, polisə niyə çağırdıqlarını izah etmədən buraxıblar".*

Azadlıq radiosu ilə əməkdaşlıq edən müstəqil jurnailst Ramin Deko öz "Facebook" səhifəsində bu barədə post paylaşıb və abunəçisi olduğu Azercell-in GPRS məlumatlarını yaydığını bildirib[44].

Bir çox sıravi vətəndaşlar və vətəndaş cəmiyyəti aktivistləri oxşar vəziyyətlə bağlı "Facebook" hesablarında postlar[45] paylaşıb və həmçinin xəbər agentliklərinin paylaşımlarının şərh bölümlərində[46] durumu təsdiqləyiblər.

Mitinqdə iştirak etdiklərinə görə polis bölməsinə çağırılan şəxslərin bir çoxu bu zənglərin audio yazısını You Tube[47] portalında paylaşıblar.

Daxili İşlər Nazirliyinin rəsmisi Orxan Mansurzadə bu hallarla bağlı verdiyi bəyanatda[48] həmin şəxslərin polis bölmələrinə çağırıldığını təstiqləyib və bunu onların ictimai asayişi pozduqlarına görə olduğunu bildirib. Lakin bu şəxslərin

---

[43] https://www.bbc.com/azeri/azerbaijan-46875038

[44] https://jam-news.net/az%C9%99rbaycanda-mitinq-istirakcilarina-polisd%C9%99n-z%C9%99ng-vurub-nomr%C9%99-v%C9%99-unvan-d%C9%99qiql%C9%99sdirirl%C9%99r/?lang=az-AZ

[45] https://drive.google.com/open?id=1BKwe1i5d1Fc7DMGvKWMd-6vHYoahB9yz

[46] https://www.facebook.com/MeydanTelevision/posts/1997116413668741?comment_id=1997139430333106&comment_tracking=%7B%22tn%22%3A%22R%22%7D

[47] https://www.youtube.com/watch?v=Wq67d7lg7Bs

[48] https://www.bbc.com/azeri/azerbaijan-46875038

kimliyinin daha sonradan necə müəyyən olunması ilə bağlı suala heç bir münasibət bildirməyib.

Ölkədə fəaliyyət göstərən hər üç mobil operator məlumatların 3-cü tərəfə məlumat ötürmək səlahiyyətini abonentlərə təqdim etdiyi müqavilələrdə göstərir. Abonentlərə bu bəndi müqavilədən çıxarmağa seçim imkanı tanımadan təktərəfli müqavilə bağlayırlar.

Məsələ ilə bağlı mobil operatorların ünvanlarına sorğular göndərilib[49].

"Azerfon" şirkəti sorğuya cavab olaraq bildirib ki, "şirkət bütün abunəçilərinə aid məlumatların məxfiliyini qanunvericiliyin tələblərinə uyğun olaraq qoruyur".

""Nar" istifadəçiyə məxsus informasiyaları yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda, rəsmi sorğu əsasında hüquq-mühafizə orqanlarına, məhkəmələrə və digər dövlət qurumlarına təqdim edə bilər".

Azercell və Bakcell operatorları isə sorğunu cavablandırmayıb.

Hər üç mobil operatorların istifadəçilərinin rastlaşdığı analoji hal isə cəbhə və sərhədyanı rayonlar istiqamətində hərəkətdə olarkən onların mobil telefonlarına Azərbaycan Respublikası Müdafiə Nazirliyi adından hərbi qulluqçuların təhlükəsizliyi naminə telefon əlaqəsi və sosial şəbəkələrdən istifadə zamanı hərbi xidmət barədə müzakirələr aparmamaq barədə xəbərdarlıq gəlməsidir. Bu isə GPS qurğusu vasitəsi ilə şəxslərin hərəkət məlumatlarının ötürülməsini sübut edir (bax: 1.3/”*Uzun Almaniyaya qarşı”*).




Fərdin şəxsiyyətini identifikləşdirən məlumatların əks olunduğu sənədlərdəki informasiyalar onun barəsindəki fərdi məlumatların bir hissəsidir. Eyni zamanda şəxsin cinsi orientasiyası haqqında da məlumatlar bura daxildir.

[49] https://www.bbc.com/azeri/azerbaijan-46875038

2019-cu il may ayında baş vermiş hadisədə isə özünü “Azərbaycan Hava Yolları” QSC-nin əməkdaşı kimi təqdim edən şəxs profilində transgender şəxsə məxsus şəxsiyyət vəsiqəsini paylaşaraq, onu gülüş obyektinə çevirmişdi. AZAL-ın işçisi şərhlərdə onun hara uçduğunu da qeyd etmişdir. Vətəndaşın kimliyindən asılı olmayaraq, ona aid məxfi məlumatların icazəsiz yayılması kimi ciddi hüquq pozuntusuna yol vermiş, vəzifə səlahiyyətlərindən sui-istifadə etmişdir. Bu addım sosial şəbəkələr üzərindən qınanıldı və gender aktivistləri “Azərbaycan Hava Yolları” QSC-dən həmin işdən çıxarılmasını və bu hala görə rəsmi şəkildə üzr istənilməsini tələb etmişdi.




[50]

“Azərbaycan Hava Yolları” QSC Feysbuk üzərindən, fəallara rəsmi cavab yazıb:

*“26 may 2019-cu il tarixində “Azərbaycan Hava Yolları” QSC-nin əməkdaşı Nazilə Muradovanın sosial şəbəkələrdə etdiyi paylaşım cəmiyyətimizdə rezonans doğurmuş və bununla əlaqədar olaraq, aviaşirkət tərəfindən dərhal daxili araşdırma aparılmışdır.*

*Araşdırmanın yekunlarına əsasən məlum olmuşdur ki, “Azərbaycan Hava Yolları” QSC-nin əməkdaşı Nazilə Muradova və digər iki əməkdaş sərnişinin şəxsi məlumatlarını paylaşaraq ciddi səhvə yol vermişdir. Bununla əlaqədar olaraq, hər 3 əməkdaş dərhal işdən azad olunmuşdur.*

*Bu məsələ ilə bağlı sərnişinimizdən və cəmiyyətimizdən üzr istəyirik.*

*Sözügedən məsələni ictimailəşdirdiyinə və haqqlı mövqe nümayiş etdirdiyinə görə cəmiyyətimizə dərin təşəkkürümüzü bildiririk.”*

Şəxsin hüquq pozuntusu törətdiyinə əsaslı şübhə olmadan ictimai yerdə saxlanılıb və üzərində şəxsi yoxlanış aparılması 8-ci maddənin və şəxsi həyat sferasının tətbiqi

---

[50] https://minorityaze.org/262-azal-aciqlama-verdi

dairəsinə düşə bilər (bax: "*Gillan və Kinton Birləşmiş Krallığa qarşı", bənd 61*[51]). Şəxs haqqında məlumatların qanunsuz toplanılması, istifadəsi və saxlanılması 8-ci maddənin pozuntusu olduğu kimi şəxsin özü haqqında olan məlumatları əldə etməsinə müdaxilə də pozuntu sayılır. Praktikada tez-tez rast gəlinən hallardan biri də odur ki, şəxslər barəsində daxili əmr əsasında "saxla-yoxla-burax" əmri qəbul olunur, bu şəxslərin xüsusi siyahısı yaradılır və onların bu tip əmrin hansı əsaslarla qoyulmasına dair sorğularına isə müvafiq dövlət orqanları susaraq heç bir mövqe bildirmir.

Hüquq müdafiəçisi Bəşir Süleymanlı Süleyman oğlu 23 fevral 2019-cu ildə ölkə sərhəddini keçərək Gürcüstan respublikasına gedərkən və həmin tarixdə yenə də ölkəyə qayıdarkən Sərhəd Buraxılış Məntəqəsində onun üzərində gömrük nəzarətinin müstəsna forması olan şəxsi yoxlama aparılıb[52]. O, onun barəsində "saxla-yoxla-burax" əmrinin hansı əsasla və hansı qurum tərəfindən verildiyini öyrənmək üçün Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyevə və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə müraciət edərək məkdub ünvanlayıb. Qurumlardan gələn cavab məktublarında isə onun üzərində heç bir yoxlamanın aparılmadığı bildirilərək müraciət təkzib edilmişdir.

Müsavat Divanının üzvü Elman Fəttah Balakən rayonu ərazisindəki "Mazımçay" sərhəd-keçid məntəqəsində gömrük nəzarətinin müstəsna forması olan şəxsi yoxlamaya məruz qalıb. O bildirib ki, artıq 3 ildir ki, hər dəfə sərhəd-keçid məntəqələrində diskriminativ şəkildə xüsusi yoxlamaya məruz qalır. O, Dövlət Sərhəd Xidmətinə bununla bağlı sorğu göndərsədə qurumun faktla bağlı münasibətini öyrənmək mümkün olmayıb[53].

Avropa Məhkəməsi analoji hallar üçün  qərara alıb ki, təhlükəsizlik xidmətlərində saxlanılan fərdi məlumatlarla tanışlığa buraxılmaya maneə yaradılması 8-ci maddənin pozuntusunu təşkil edə bilər ("*Haralambye Rumıniyaya qarşı"*[54]).

Analoji hadisə hüquq müdafiəçisi Samir Kazımlı Sabir oğlu da rastlaşıb. 11.11.2014-cü il tarixindən başlayaraq 29.10.2017-ci ilə qədər ölkədən çıxarkən və ölkəyə qayıdarkən sərhəd məntəqələrində Dövlər Sərhəd Xidmətinin (DSX) əməkdaşların tərəfindən saxlanılıb, sanki cinayətkar kimi müşayiət altında Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşlarına təhvil verilib. Sonuncu qurumun əməkdaşları tərəfindən xüsusi yoxlamaya məruz qalıb. Onlar üzərindəki valyutanın miqdarı, bank kartlarının olub-olmaması ilə maraqlanıblar və bir otağa salaraq

---

[51] https://hudoc.echr.coe.int/rus#{%22itemid%22:[%22001-96585%22]}
[52] https://www.amerikaninsesi.org/z/2024/2019/2/23?p=9
[53] https://arqument.az/az/elman-fettah-serhedde-saxlanlb-yoxlamaya-meruz-qalb/#.XSiqWegzbIV
[54]https://hudoc.echr.coe.int/eng#{%22fulltext%22:[%22Haralambie%22],%22documentcollectionid2%22:[%22GRANDCHAMBER%22,%22CHAMBER%22],%22itemid%22:[%22001-95302%22]}

üzərində və əl çantasında axtarış aparıblar. Axtarış apardıqdan sonra gömrük bəyannaməsi yazdıraraq imzaladıblar. Bundan əlavə hansı ölkəyə getməyilə, harada işləməyilə, səfərinin məqsədi ilə bağlı suallar veriblər, pasportunun səhifələrinin surəti çıxardıblar. 11.11.2014-cü il tarixindən 29.10.2017-ci ilə tarixə qədər təxminən ölkədən 17 dəfə giriş-çxış (cəmi 34 dəfə) edib və hər dəfə yuxarıda qeyd olunan şəkildə yoxlamalara məruz qalıb.

Hüquq müdafiəçisi 21 noyabr 2017-ci ildə DSX-ya müraciət edib və xahiş edib ki, DSX əməkdaşları tərəfindən sərhəd buraxılış məntəqələrində saxlanılmasına son qoyulsun və ona dəyən mənəvi zərərə görə 10.000 (on min manat) manat kompensasiya ödənilsin. Ərizəçının müraciətinə bu günə kimi cavab verilməyib. DGK 21 dekabr 2017-ci ildə cavab verib və bildirib ki, "gömrük sərhədindən keçən şəxsin onun şəxsiyyəti səyahət marşurutu, səyahət sənədi, digər məsələlər barədə sorğu-sual edilməsi gömrük orqanlarının vəzifəli şəxslərinin hüququdur" eyni zamanda məktubda nəqliyyat vasitələri digər malların bəyan edilməli olması halları qeyd edilib. Jurnalist ayrı-ayrılıqda DSX və DGK-ya qarşı iddia ərizəsi ilə 1 saylı Bakı İnzibati İqtisadi Məhkəməsinə müraciət edib. Lakin jurnalistin heç bir iddia ərizəsi mahiyyəti üzrə araşdırılmayıb. Bütün məhkəmə instansiyaları bildirdilər ki, Ərizəçinin tələbi qanunsuzdur.

Jurnalist Aynur Elgünəş öz "Facebook" səhifəsində paylaşım edərək bildirib ki, əlində prokurorluğun rəsmi sənədi olsa da hava limanında gömrük işçiləri onun "stoplu" olduğunu bildirib və sonrasında isə bəyan ediləcək miqdarda valyutanın olmamasına baxmayaraq, ona bəyannamə yazdırılıb[55].

Jurnalistlərin şəxsi həyatının və fərdi məlumatlarının təhlükə altında olduğunu göstərən digər fakt isə araşdırmaçı jurnalist Xədicə İsmayılovanın onun barəsində gedən istintaqın effektsiz olduğunu bildirdiyi tənqidinə cavab olaraq 2012 –ci il aprel ayında Baş Prokurorluğun davam edən istintaqın statusu ilə bağlı bir hesabatı ictimayətə açıq şəkildə yaymağı olub. Həmin hesabatda Jurnalistin münasibətdə olduğu şəxsin, dostlarının, həmkarlarının və ailə üzvlərinin hamısının istintaqda şahid kimi dindirilməsi qeyd olunub və onların kimliyi açıq şəkildə göstərilib. Bununla yanaşı jurnalist və dostları onun evində gizli kameralar[56] və Avtomat Telefon Stansiyasından gizli çəkilən ikinci telefon naqili aşkarlayıb. Jurnalisitin müraciətlərinə baxmayaraq istintaq orqanları tərəfindən heç bir effektiv istintaq və hüquq müdafiə tədbirləri edilməyib ("*Xədicə İsmayılova Azərbaycana qarşı"/bənd 24,36* )[57].

[55] https://www.facebook.com/elgunesh/posts/10219130301752554
[56] https://www.amnesty.org.uk/podcast-in-their-own-words-khadija-ismayilova-journalist-azerbaijan
[57] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-188993%22]}

## 5.Nəticə

Monitorinq zamanı əldə olunan faktlar praktikada olan problemlərin özünün iki istiqamətini biruzə verdiyini göstərir. Birinci amil qanun düzgün tətbiq olunmur və vəzifəli şəxslər tərəfindən sui-istifadə hallarına yol verilir. İkinci amil isə qanunvericiliyin özünün doğurduğu problemlərdir:

1. Qanunvericilik şəxsi həyata hər hansı bir müdaxiləni, yazışmalara nəzarət və məlumatların qanunsuz toplanıb və yayılmasını qadağan edir. Ümumilikdə isə hökumət tərəfindən bu qadağalara əməl edilməmişdir. Dövlət Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyi Tərəfindən ictimai fəalların, xaricilərin və hüquq müdafiəçilərinin telefon danışıqlarının dinlənilməsi və internet yazışmalarına müdaxilələr haqqında məlumatlar qeydə alınıb. Poçt xidmətləri isə hökumət qurumlarından asılı vəziyyətdədir və məktublarda siyasi motivlərin olub olmamasını müəyyən edə bilmək üçün müəyyən qrup şəxslərin məktublarına nəzarət olunması faktları qeydə alınıb. Polis cinayətkarlıqda şübhəli bilinən şəxslərin, müstəqil jurnalistlərin, siyasi müxalifət üzvlərinin və liderlərinin, eləcə də müəyyən QHT-lərin əməkdaşlarının və rəhbərlərinin ailə üzvlərinə hədə-qorxu gəlməyə, onları təqib etməyə və bəzən həbs etməyə davam etmişdir[58][59].

Şəxslərin özləri barədə məlumatlara çatımlılığının və onlar haqqında qəbul edilən əmrlərlə tanış olmasının mümkün olmaması pozuntuların həm də məlumat əldə etmək azadlığı istiqamətində olduğunu da göstərir. İstintaq məlumatları və onun detallarının yayılması fərdin şəxsi həyatına müdaxilə ilə yanaşı onun ifadə azadlığı və siyasi fikirlərinə müdaxilə sayılır, bu hallar vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı onların fəaliyyətlərinə görə hər zaman belə təhlükələrlə üz-üzə qala biləcəkləri qənaətinə gəlməyə imkan verir.

AZAL əməkdaşının transgender şəxsin fərdi məlumatlarını icimaiyyətə açıq paylaşması[60] və bu paylaşıma gələn bəzi reaksiyalar ölkədə bu kateqoriya şəxslərin şəxsi həyatının qorunmasına müdaxilənin bir o qədər də narahat edici hal olmadığı qənaətinə gəlməyə imkan verir.

2. Şəxsi həyatın toxunulmazlığı və fərdi məlumatların istifadəsi qaydalarını tənzimləyən AR qanunvericiliyinin müddəalarını "Əsas İnsan Hüquqları və

[58] https://az.usembassy.gov/wp-content/uploads/sites/284/Azerbaijan_HRR-2017_Aze.pdf
[59] https://az.usembassy.gov/az/2018-ci-ild%C9%99-az%C9%99rbaycanda-insan-huquqlarina-dair-hesabat/
[60] https://minorityaze.org/262-azal-aciqlama-verdi

Azadlıqları haqqında" Avropa Konvensiyası[61], Mülki və Siyasi hüquqlar haqqında pakt[62], "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənilməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Avropa Şurası dövlətlərinin imzaladığı konvensiya[63] və eləcədə digər beynəlxalq sənədlər çərçivəsindən nəzərdən keçirdikdə məlum olur ki, yerli qanunvericilik yetərli deyil və sadalanan beynəlxalq normativ hüquqi aktların tələblərinə uyğun tərtib edilməyib.

Məlum olub ki, şəxsi həyata müdaxilə hallarını asanlaşdıran qanunvericilik normaları beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərin ziddinə olaraq yerli qanunvericilikdə yer almışdır. Şəxslərin məkan məlumatları və danışıqlarını dinləməyə icazə verən norma "Telekommunikasiya haqqında" AR qanunun[64] 39-cu[65] maddəsində qeyd olunub. Həmçinin lokasiya məlumatlarının ötürülməsi və telefon danışıqlarının dinlənilməsi kimi pozuntular baş verən zaman qurbanların bundan xəbəri olmadığı üçün onlar yerli və Avropa Məhkəməsi hüquqmüdafiə mexanizmlərinə müraciət şanslarını itirdikləri müəyyən olub. Bu tip pozuntuların mövcudluğunu iddia etmək üçün maddi sübutların toplanılması isə fərdlər üçün çox çətinlik yaradır.

## 6. Tövsiyələr

1. Şəxslərin hüquq və mənafelərinin qorunması və beynəlxalq konvensiyaların tələblərinə cavab vermək üçün yerli qanunvericilik daha üstün səviyyəyə gətirilməlidir.
2. Beynəlxalq təşkilatların Azərbaycanda İnsan Hüquqlarının vəziyyətinə dair olan hesabatlarındakı tövsiyələr nəzərə alınmalıdır.
3. Şəffaflığı qorumaq və cəmiyyət qarşısında hesabatlılığı təmin edə bilmək üçün Kütləvi İnformasiya Vasitələrininin asılılığı dayandırılmalı və azad medianın fəaliyyət göstərə bilməsi üçün təzyiqlər aradan qaldırılmalıdır ki,

---

[61] https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf

[62] https://www.ohchr.org/en/professionalinterest/pages/ccpr.aspx

[63] https://www.coe.int/en/web/conventions/full-list/-/conventions/treaty/108

[64] http://www.e-qanun.az/framework/10663

[65] Maddə 39. **Operatorların, provayderlərin əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən orqanlarla qarşılıqlı əlaqəsi**

39.1. Operatorlar, provayderlər qanunla müəyyən edilmiş qaydada əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin keçirilməsi üçün şərait yaratmağa, bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi şərtlərə uyğun telekommunikasiya şəbəkələrini əlavə texniki vasitələrlə təchiz etməyə, təşkilati məsələləri həll etməyə və bu tədbirlərin keçirilməsində istifadə olunan üsulları gizli saxlamağa borcludur. [24]

39.2. Bu tələblərin pozulmasına görə operator, provayder qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır

ictimai debata səbəb ola biləcək pozuntu faktlarından vətəndaşlar xəbərdar olsun.

4. Əqidəsindən, siyasi görüşündən və hər hansı siyasi partiyaya mənsub olması səbəbindən şəxslərə diskriminativ münasibət və şəxsi həyatına qanunsuz müdaxilə halları aradan qaldırılmalı və buna yol açan dövlət məmurlarının qanunla nəzərdə tutulan məsuliyyəti real şəkildə icra olunmalıdır.
5. Dövlətin güc strukturlarına güvəni artırmaq üçün istintaq sirrinin pozulması və vətəndaş müraciətlərinin baxılmamış saxlanması halları ilə əlaqədar məsuliyyətlə bağlı qanunvericilikdə mövcud normalar tətbiq edilməlidir.
6. Avropa Məhkəməsinin yanaşmaları ***Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı***[66] rəhbər tutularaq ədalət mühakiməsinin  tətbiqi zamanı aktiv şəkildə tətbiq olunmalıdır.

[66] http://supremecourt.gov.az/post/view/163

Sənəd **Demokratik Təşəbbüslər İnstitutunun (IDI)** apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhvə verən hər kəsə dərin təşəkkürünü bildirir.

***Məlumatlardan istifadə edərkən IDI -yə istinad etmək zəruridir.***

**Əlaqə məlumatları:**

Tel: +99455 234 76 76

Web: www.idi-aze.org

E- poçt: idi.azerbaijan@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI